KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 3 (16) 2022

JURNALİSTİKA

**Həmid Alı oğlu Vəliyev**
*Bakı Dövlət Universiteti Jurnalistika fakültəsi*
*Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının professoru*

# İSOKRAT: "ELLADANI İRANA – FARSLARA QARŞI MÜHARİBƏ ÜÇÜN BİRLƏŞMƏYƏ ÇAĞIRIRAM"

***Xülasə:*** *Məqalədə qədim Yunanistanın məşhur natiqlərinən biri olan İsokratın "Mədhiyyə"nitqi təhlil edilir,onun əsas ideyasının xarici düşmənlərə qarşı müharibə ücün birləşməyə çağınldığı göstərilir, konkret halda Elladanın sərvətlərinin İrana daşınması ilə məşğul olan farsların barbarlığına son qoyulmasının vacibliyi nəzərə çatdırılır. İsokrat nitqinin sonunda qeyd edir ki, "Bizi boğub məhv edən müharibəni Avropadan Asiyaya keçirsək, Asiyanın xəzinəsini isə mənimsəsək, bizi nə qədər böyük xoşbəxtliyin gözlədiyini özümüz görərik".*

***Açar sözlər:*** *İsokrat, farslar, barbarlar, İran, müharibə, natiqlik sənəti.*

**Hamid Ali oglu Valiyev**

## Isocrates: "I call Hellas to unity and war against Iran - Persia"

***Abstract:*** *The speech covers that Ellada has to unite in order to fightagainst the Persians, who are ruining Greece, the place of wars must be changed from Europe to Asia, but the wealth of Asia has to be moved to Europe, exactly in that time we will see which happiness is waiting for us.*

***Key words:*** "Panegyric", Socrates` speech, is analyzedlike a sample for Art of Oratoryin the article.

**Гамид Алы оглу Велиев**

## Изократ: «Я призываю Элладу к единству и к войне против Ирана – Персию"

***Резюме:*** *В статье анализируется речь Исократа "Панегирик" как образец ораторского исскуства. В речи говорится о том,что Эллада должна обьедениться с целью сражения против персов, которые разоряют Грецию, нужно перенести войны из Европы в Азию, а богатства Азии перенести в Европу, именно тогда мы увидим, какое счастье нас ожидает.*

***Ключевые слова:*** *Исократ, персы, счастье, варвары, война, ораторское искусство.*

İsokrat haqqında söhbət açmazdan əvvəl ritorikanin nə olduğu barəsində danışmağa ehtiyac vardır. **Ritoika natiqlik sənəti, daha geniş mənada isə bədii nəsr haqqında elmdir.** Yunan dilində "rhetorike" sözünün anlamına gəlir. Eramızdan əvvəl V əsrdə qədim Yunanıstanda yaradılmış, III-II əsrlərdə orada, eramızdan əvvəl I əsrdə isə Romada sistemə çevrilmişdir. Sonralar "ritorika" termini zahirən qəşəng, dəbdəbəli, lakin məzmun və bədii cəhətdən zəif, bəsit əsər, nitq, sözçülük mənasında işlədilmişdir.

Yunan cəmiyyətinin əməli tələbatı sayəsində gözəl nitq nəzəriyyəsi meydana çıxmış, ritorikanın öyrədilməsinin və antik təhsilin ali mərhələsinə çevrilmişdi. Yaradılmış dərsliklər də bu təhsilin qarşısında duran vəzifələrə cavab verirdi. Həmin dərsliklərdə nəsihətlər bizim eramızdan əvvəl V əsrdən başlayaraq yaradılsa da, dövrümüzə qədər, demək olar, gəlib çatmamışdır.

**Eramızdan əvvəl IV əsrdə Ərəstu ritorikanın nəzəri nailiyyətlərini fəlsəfi baxımdan ümumiləşdirməyə cəhd göstərmişdir.** Ərəstuya görə, ritorika nitqdə tətbiq edilən sübutlar sistemini, onun heca və kompozisiyasını təbliğ edir. Ərəstu ritorikanı dialektika, yəni məntiqlə sıx əlaqəli elm kimi təqdim edir. O, ritorikanı hər bir verilmiş predmetə nisbətən inandırmağın mümkün üsullarını tapmaq bacarığı kimi müəyyənləşdirir. **Ərəstu bütün nitqləri üç növə-məşvərət, məhkəmə və epidiktik, yəni təntənəli nitqlərə bölür. Ərəstunun fikrincə, məşvərət nitqi hallandırmaq və ya rədd etmək, məhkəmə nitqi günahlandırmaq və ya bəraət qazandırmaq, epidiktik nitq isə tərifləmək və ya tənqid etmək vəzifələrini yerinə yetirir.** Filosof elə buradaca məşvərət nitqlərinin mövzularını da müəyyənləşdirir. Bunlar maliyyə, müharibə və sülh, ölkənin müdafiəsi, məhsulların ölkəyə gətirilməsi və ölkədən aparılması, qanunvericilik və sairdir.

Antik dövrdə yuxarıda göstərilən üç nitq növündən biri – məşvərət nitqi daha vacib idi. Buna başqa sözlə siyasi ritorika da deyilirdi.

Qədimdə məhkəmə nitqləri xüsusilə geniş yayılmış janr hesab olunurdu, çünki qədim yunanın həyatında çox böyük yer tuturdu. O dövrdə prokurorlar yox idi, hər bir şəxs ittihamçı qismində çıxış edə bilərdi. Müttəhim hakimlər qarşısında çıxış edərək, özü özünü müdafiə edirdi. O çalışırdı ki, hakimləri günahsız olduğuna nəinki inandırsın, həm də onların rəğbətini qazana bilsin. Bu məqsədlə ən gözlənilməz üsullardan istifadə edirdi. Həmin şəxs uşaqlarını, ailəsinin digər üzvlərini məhkəməyə gətirir və onlar hakimlərə yalvarırdılar ki, atalarına yazığı gəlsin. Əgər müttəhim döyüşçü idisə, vətən uğrunda döyüşlərdə aldığı yaraları göstərirdi. Əgər şair idisə, şeirlərini oxuyur, məharətini nümayiş etdirirdi. Bu hal Sofoklun tərcümeyi-halından da məlumdur.

Qədim Afinada dolaşıq məhkəmə hüququ şəraitində mühakimə işi ilə məşqul olmaq o qədər də asan deyildi. Məhz buna görə də müqəssirlər natiqlik istedadına malik təcrübəli şəxslərin xidmətindən istifadə etməyə çalışırdılar. Natiqlər isə işlə tanış olduqdan sonra aldıqları pulun müqabilində öz



KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal
№ 3 (16) 2022

müştərilərinin çıxışlarını yazırdılar, müştərilər yazılanları əzbərləyir və məhkəmədə danışırdılar. Bu cür nitqlərin yaradıcılarına loqoqraf deyirdilər. Elə hallar da olurdu ki, loqoqraf təsdiqlədiyini təkzib edirdi. Plutarxın məlumatına görə, haqqında söhbət açacağımız Demosfen bir dəfə belə hərəkət etmişdi.

Məhkəmə nitqinin banisi **Lisi** sayılır. O, 400 nitq hazırlamışdır ki, bunun da bizə yalnız 34-ü gəlib çatmışdır. Qədim tənqidçilər Lisinin üslubunun səciyyəvi cəhətlərini göstərmişlər. Onun nitqləri sadə, məntiqi və ifadəli olmuşdur. İbarələr qısa və simmetrik qurulmuşdur, natiqlik üsulları gözəl və diqqətə layiqdir.

Həmin dövrdə **İsokrat** ritorika müəllimi kimi haqlı olaraq təntənəli nitqin əvəzedilməz ustadı hesab olunurdu. Bu şəxs qədim yunan mədəniyyəti tarixinə həm də siyasi natiq, publisist kimi daxil olmuşdur. Onun bütün fəaliyyəti yalnız bir ideyaya xidmət edir, bütün yunanları düşmənlərə qarşı müharibə üçün ittifaqa nail olmağa ruhlandırırdı. Onun fikrincə, Yunanıstan düşmənlərin hücumlarından, kasıblıq və dilənçilikdən yalnız birliklə xilas ola bilər. O deyirdi ki, hazırda Yunanıstanı bürümüş müharibələri Asiyaya, Asiyanın sərvətlərini isə Avropaya köçürmək lazımdır. Bu Panellada ideyası İsokratın bütün nitqlərinin ruhunu təşkil edir.

Afinalı İsokrat eramızdan əvvəl 436-cı ildə doğulmuş və 338-ci ildə vəfat etmişdir. O dövrünün çox görkəmli natiqi və bəlağətli nitq müəllimi kimi tanınmışdır. İsokratın 28 nitqindən 21-i zəmanəmizə qədər gəlib çatmışdır. Nitqlərinin bəziləri tarixi şəxsiyyətlərə, o cümlədən Makedoniya çarı Filippə və müstəbid Dionisiyə həsr edilmişdir. 392-ci ildə yaratdğı bəlağətli nitq məktəbi ən böyük ritorika mərkəzi olm aql a yanaşı, həm də bir növ universitet kimi fəaliyyət göstərirdi. Bu məktəbdə görkəmli natiqlər, tarixmilər, sərkərdələr və siyasi xadimlər yetişmişdi

Görkəmli natiq İsokratın natiqlik məktəbini yüksək qiymətləndirən Siseron demişdir ki, həmin məktəbin yetirmələri qəhrəmanlar kimi tanınmışlar. O, natiqlik sənətinin tanınmışlarını Troya atı ilə müqayisə etmişdir. Bu məktəbin dinləyicilərinin sayı 100 nəfərə çatmışdı.

Həmin dövrdə **İsokrat** ritorika müəllimi kimi haqlı olaraq təntənəli nitqin əvəzedilməz ustadı hesab olunurdu. Bu şəxs qədim yunan mədəniyyəti tarixinə həm də siyasi natiq, publisist kimi daxil olmuşdur. Onun bütün fəaliyyəti yalnız bir ideyaya xidmət edir, yunanları düşmənlərə qarşı müharibə üçün ittifaqa nail olmağa ruhlandırırdı. Onun fikrincə, Yunanıstan düşmənlərin hücumlarından, kasıblıq və dilənçilikdə yalnız birlikdə xilas ola bilər. O deyirdi ki, hazırda Yunanıstanı bürümüş müharibələri Asiyaya, Asiyanın sərvətlərini isə Avropaya köçürmək lazımdır. Bu Panellada ideyası İsokratın bütün nitqlərinin ruhunu təşkil edir. Bu cəhətdən müəllifin **"Mədhiyyə"**si diqqəti xüsusilə cəlb edir.

İsokrat yaşadığı cəmiyyətdə düşünən insanlara qiymət verilməməsini pisləyir, Elladanın birliyinə nail olmağın vacibliyini göstərir, məqsədə nail olmayınca nitqin dayanmasını məsləhət görmür:

"Məni həmişə təəccübləndirirdi ki, bayramlarda və atletlərin, pəhləvanların yarışlarında, qaçışda qaliblərə böyük mükafatlar verirlər, ümumi rifah üçün cərimə çəkənlərə, yalnız özünə deyil, həm də cəmiyyətə faydalı olmağa çalışanlara nə mükafat verirlər, nə də hörmətlə yada salırlar, halbuki onlar ehtirama daha çox layiqdirlər, zira atletlər ikiqat güclü olsalar belə, heç kəsə fayda gətirməyəcəklər, düşünən insan isə onun fikirlərinin bəhrələrinə qoşulmaq istəyənlərin hamısına faydalıdır [1, s. 218]. Lakin mən bununla hesablaşmamağı, bu nitqin mənə gətirəcəyi şöhrətin kifayət qədər mükafatlandırılacağını yəqin edərək, buraya gəlmişəm ki, Elladanı birliyə və barbarlara qarşı müharibəyə çağırım [1, s. 218].

"Mədhiyyə"ni kompozisya etibarı ilə üç hissəyə bölmək olar: giriş əsas hissə və nəticə. Natiq girişdə öz nitqinin əsas mövzusunu formalaşdırmaqla yanaşı, bir növ dinləyicilərini daha əlverişli qavramağa yönəldir. İsokrat deyir: "Nitqdə eyni məsələni müxtəlif cür şərh etmək,yəni heç nəyə dəyməyən məsələni böyütmək, keçmişin hadisələrinə yeni qaydada nəzər yetirmək, bu yaxınlarda baş verənlərə yenidən diqqət çəkmək olar" [1, s. 8].

Nitqin əsas hissəsini oz novbəsində iki tərkib hissəsinə bölmək mümkündür. Bir tərəfdən, İsokrat əsaslandırmaqla sübut edir ki, Elladanın bütün şəhərlərinə Sparta deyil, məhz Afina hakim olmalıdır. Digər tərəfdən, natiq elladalıları farslara qarşı birgə yüyüşə səsləyir.

Müəllif Elladanın paytaxtının məhz onun doğma şəhəri Afinanın olmasını sübut edən ondan çox fakt göstərir. Natiq yazır: "Hamı Afinanın ən qədim, ən böyük və ən məşhur şəhər olduğunu etiraf edir. Bizim şəhərdən mənşə etibarilə daha xeyirxah şəhər yoxdur: Biz həmişə doğulduğumuz doğma torpaqda yaşamışıq və yaşayırıq" [1, s. 35].

İsokrat farslara qarşı yürüşə yollanmaq çağırışını da əsaslandırır. Natiq deyir: "Əvvələn, həm biz, həm də spartançılar ağılsızıq, çünki əlimizdə böyük sərvətlər olsa da, cüziyi fayda götürmək üzündən bir-birimizin torpaqlarını talan edirik, halbuki Asiyada bizi bol-bol biçin gözləyir, ikincisi İran padişahının qüdrətindən qorxmaq əvəzinə [1, s. 138], bu padşaha qarşı mübarizə üçün daha yaxşı şərait yaratmaq lazımdır [1, s. 160].

Natiq adı almaq iddiasında olanların bir çoxunun bu mövzuda artıq çıxış etmələrinə baxmayaraq, mən onları qəti surətdə ötüb keçmək niyyətindəyəm, zira mühüm məsələlərə həsr olunmuş nitq natiqə həm özünü göstərmək, həm də dinləyicilərə daha çox fayda vermək üçün şərait yaradır. Əminəm ki, mən məhz belə natiqəm. Əslində, o qədər çox vaxt itirilməmişdir ki, hərəkətə çağırış artıq gec olsun. Natiq o zaman susmalıdır ki, iş görülmüş olsun, onun müzakirəsinin mənası olmasın, yaxud məsələ sona çatsın və ona nəsə əlavə etməyə ehtiyac qalmasın. Əvvəlki çıxışların uğursuzluğundan iş yerindən tərpənməyib. Misgər yalnız müvəffəqiyyət qazandığı halda daxili müharibəyə son qoyacaq. Belə isə bizi böyük bəlalardan xilas edə biləcək nitq üzərində çalışmağa dəyməzmi?" [1, s. 4-7].





İsokrat "Mədhiyyə"də Elladanın parçalanmasına qarşı çıxır, qarşılıqlı ədavətə son qoymağı məsləhət görür: "İndi isə hamıya aid olan məsələ haqqında. Qarşılıqlı ədavətə son qoymağımızın, silahı barbarlara qarşı çevirməyin, daxili müharibənin ağırlığını onların üzərinə keçirməyin vaxtının çatdığı, İranın gələcəkdə fəth edilməsindən əldə olunacaq səmərələr haqqında danışan natiqlər tamamilə haqlıdır. Lakin başlıca məsələni unudurlar" [1, s. 15].

İsokrata görə, başlıca məsələ bundan ibarətdir: "Ellada şəhərlərinin böyük hissəsi ya Afinanın, ya da Spartanın tabeliyi altındadır və bu onların dövlət və ictimai quruluşlarında mövcud olan fərqləri gücləndirir. Buna görə də iki baş şəhəri barışdırmadan elladalıları birgə fəaliyyətə cəlb etməyə nail olmağın mümkünlüyünü düşünmək ağılsızlıq olardı. Əgər natiq yalnız bəlağətli nitqi ilə parlamaq istəmir, həm də işdə nəyəsə nail olmağa çalışırsa, Afinanın və Spartanın Elladada bir-birinə bərabər hüquqlarını tanımağın zəruriliyinə inandırmalıdır, fayda isə farslara qarşı müharibədə axtarılmalıdır" [1, s. 16].

İsokrat cəsarətlə deyir: "Mən ən əvvəl Afinanı və Spartanı inandırmağa çalışacağam ki, rəqabətə son qoysunlar və farslara qarşı müharibə etsinlər. Bu məqsədə çatmaq mümkün olmasa, onda heç olmazsa, Elladanın indiki bədbəxtliklərinin günahkarının adını deyəcək və sübut edəcəyəm ki, Afina Elladada tam hüquqla birinci yerə çıxmağa nail olur. Mən belə hesab edirəm ki, bizi farslara qarşı müharibəyə həddindən artıq çox şey sövq edir. İndi isə müharibənin əsl vaxtıdır. Əlverişli vəziyyəti əldən vermək və sonradan onu acı-acı xatırlamaq rüsvayçılıq olardı" [1, s. 18-20].

İsokrat farsların imperiyasının parçalanmağa doğru getdiyini də göstərməyə çalışmışdır: "Misir və Kipr ona qarşı üsyan etmişlər; Finikiya və Suriya müharibə nəticəsində dağılmışdır, hökmdar üçün çox vacib olan Tir onun düşmənləri tərəfindən işğala məruz qalmışdır; Kilikiya şəhərlərinin böyük hissəsi artıq müttəfiqlərimizin əlindədir, qalanlarını isə fəth etmək asan olacaqdır; Likiya isə, ümumiyyətlə, farsların hakimiyyəti altında deyildir. Kariyanın canişini Hekatomn əslində farslardan çoxdan ayrılmışdır və əgər istəsək, açıq surətdə bizim tərəfimizə keçər" [1, s. 161].

İsokrat ölkəsini böyük bəlalara düçar edən müharibəni vətənindən uzaqlaşdırmağı tövsiyə edir: "Bizi boğub məhv edən müharibəni Avropadan Asiyaya keçirsək, Asiyanın xəzinəsini isə mənimsəsək, bizi nə qədər böyük xoşbəxtliyin gözlədiyini özümüz görərik" [1, s. 187].

## ƏDƏBİYYAT

1. *Ораторы Греции (сборник). - Москва: Художественная литература, 1985. - 496 с.*

2. *Vəliyev Həmid. Xarici ölkələrin jurnalistikası tarixi: Dərslik. - Bakı, 2013. - S.17-22.*